Müştərinin nömrəsi:____

# KREDİT MÜQAVİLƏSİ
**№ ____________________**

## MÜQAVİLƏNİN XÜSUSİ ŞƏRTLƏRİ

| BANK OLMAYAN KREDİT TƏŞKİLATI (BOKT) | BORCALAN |
|---|---|
| **Adı:** "SF AZERBAİJAN" Bank Olmayan Kredit Təşkilatı MMC<br>**VÖEN:** 1405686861<br>**Telefon nömrəsi:** +994123110255<br>**Elektron poçt ünvanı:** info@manato.az<br>**Hüquqi ünvanı:** AZ1025, Azərbaycan Respublikası, Bakı, Xətai rayonu, Xocalı pr., ev 37, | **Adı, Soyadı: ________**<br>**Eyniləşdirmə nömrəsi: _______**<br>**Telefon nömrəsi: _________**<br>**Elektron poçt ünvanı:______**<br>**Borcalanın hesabı:**<br>______________________________ |

Verilmiş kreditin məbləği: ____AZN
Verilmiş kredit məbləğindən istifadəyə görə haqq: ____AZN
Verilmiş kredit məbləğindən istifadəyə görə haqq, faizlə: ___%
Verilmiş kredit məbləği üzrə xidmət haqqının məbləği: ____AZN
İllik faiz dərəcəsi: ___ %
Ödəniləcək ümumi məbləğ: ____AZN
Faktiki illik faiz dərəcəsi (FİFD):____%
Verilmiş kredit məbləğinin ödənilmə tarixi: _____.

*BOKT Borcalanın sorğusuna əsasən və onun verilmiş kredit məbləğini ödəmə qabiliyyətini nəzərə alaraq, mümkün kredit limiti çərçivəsində Borcalana kredit məbləği verir.

**Terminlər**

| | |
|---|---|
| **İllik faiz dərəcəsi** | Müqavilə bağlanan anda qüvvədə olan hüquqi aktlara əsasən, verilmiş kredit məbləği üzrə hesablanmış, faizlə ifadə olunan ümumi xərclər. İllik faiz dərəcəsi Müqavilənin Xüsusi şərtlərində əks olunmuşdur. İllik faiz dərəcəsi verilmiş kredit məbləğinin tam şəkildə alınması və verilmiş kredit məbləğinin ödəniş tarixindən əvvəl qaytarılması ehtimalı əsasında hesablanır. |
| **Verilmiş kredit məbləğinin ödənilmə tarixi** | Borcalanın Müqavilənin şərtlərinə uyğun olaraq, verilmiş kredit məbləğini və bütün məbləğləri Müqaviləyə əsasən ödəməli olduğu müddətin son günüdür. |
| **Müqavilə** | Ümumi şərtlər və Xüsusi şərtlərdən ibarət kredit müqaviləsidir. |
| **Əlavə kredit** | Borcalanın öz kredit limiti çərçivəsində almaq üçün müraciət edə biləcəyi |

| | |
|---|---|
| **məbləği** | məbləğ. |
| **Borcalan** | Müqavilənin Xüsusi şərtlərində qeyd olunan və BOKT- la Müqavilə bağlayan, həmçinin aşağıdakı bütün şərtlərə uyğun gələn fəaliyyət qabiliyyətli fiziki şəxs:<br>• Borcalanın yaşı 18-dan 65-ə qədərdir;<br>• Borcalananın bəyan edilmiş daimi yaşayış yeri Azərbaycan Respublikasındadır;<br>• Borcalan Azərbaycan Respublikasında vergi ödəyicisidir (rezidentdir);<br>• Borcalanın adına kredit təşkilatında hesab/poçt hesabı/ Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş ödəniş kartı və ya elektron pul kisəsi almışdır ki, onun köməyi ilə Borcalanın mövcud pul vəsaiti üzərində sərbəst sərəncam vermək hüququ vardır;<br>• Borcalan həqiqi benefisiardır (yəni Borcalan yalnız öz adından, öz mənfəəti və maraqları üçün çıxış edir);<br>• Müqavilə bağlanan anda Borcalan spirtli içkilər, narkotik, psixotrop və ya zəhərli maddələrin təsiri altında deyildir;<br>• Borcalan sabit gəlirə malikdir,<br>• Borcalan siyasi əhəmiyyətli şəxs, siyasi əhəmiyyətli şəxsin ailə üzvü və ya yaxın adamı deyil, beynəlxalq və daxili sanksiyalara məruz qalmır və terrorçuların siyahısına daxil edilməmişdir. |
| **Verilmiş kredit məbləğinin ödənilmə tarixinin dəyişdirilməsinə görə komissiya** | BOKT tərəfindən təklif olunan və borcalan tərəfindən təsdiq edilən, Web saytda və Borclananın profilində göstərilən, kredit məbləğinin ödəmə tarixinin dəyişdirilməsi məqsədi ilə müqaviləyə uyğun olaraq verilmiş kredit məbləğinin ödəmə tarixinin dəyişdirilməsi şətlərinə əsasən, Borcalanın BOKTun hesabına köçürdüyü komissiya. |
| **kreditin limiti** | Borcalanın ödəmək üçün aldığı və Borclananın profilində qeyd olunan, BOKT tərəfindən birtərəfli qaydada müəyyən edilmiş limit. |
| **Bank olmayan kredit təşkilatı (BOKT)** | “SF Azerbaijan” Bank olmayan kredit təşkilatı MMC, VÖEN: 1405686861, Hüquqi ünvanı: AZ1025, Azərbaycan Respublikası, Bakı, Xətai rayonu, Xocalı pr., ev 37 |
| **Geri ödənilməli ümumi məbləğ** | Verilmiş kreditin məbləği və Müqaviləyə uyğun olaraq Borcalana ödənilməli olan bütün məbləğlər. Geri ödənilməli olan ümumi məbləğ Müqavilənin Xüsusi şərtlərində qeyd olunmuşdur. |
| **Şifrə** | Borcalanın profilinə qoşulması və profilinə sorğu göndərməklə şəxsiyyətini təsdiq etməsi üçün borcalanın seçdiyi rəqəmlər və hərflərin birləşməsi. |
| **Verilmiş kredit məbləğindən istifadəyə görə haqq** | Verilmiş kredit məbləğinin təqdim olunması və istifadəsinə görə Borcalan tərəfindən BOKT-a müəyyən olunmuş müddət ərzində ödənilən və məbləği Müqavilənin Xüsusi şərtlərində qeyd olunan haqq. Sözügedən haqq hər zaman, o cümlədən Borcalan verilmiş kredit məbləğinin müəyyən olunmuş tarixdə ödənilməsinə riayət etməyərək, verilmiş kredit məbləğini başqa zaman geri ödədiyi halda belə verilmiş kredit məbləğinin istifadə edilən faktiki miqdarı və müddətinə əsasən hesablanır. Verilmiş kredit məbləğindən istifadə haqqı verilmiş kreditin məbləğindən istifadəyə görə ödənilməli olan faiz və ya haqdan ibarətdir. |
| **BOKT-un şəxsi məlumatların emalı ilə bağlı siyasəti** | Şəxsi məlumatların emalı ilə bağlı siyasət şəxsi məlumatların emalına dair qaydalar və “cookie” fayllarından istifadəni əhatə edir. Sözügedən siyasətlə BOKT-un saytında tanış ola bilərsiniz. |
| **Borcalanın** | Saytda qeydiyyatdan keçdikdən sonra Borcalan tərəfindən yaradılan, loqin və şifrəni daxil etdikdən sonra hər zaman Borcalanın ixtiyarında olan saytdakı |

| | |
|---|---|
| **Profili** | şəxsi səhifəsidir. |
| **Sayt** | Borcalanın elektron qaydada qeydiyyatdan keçdiyi və Profilinin olduğu BOKT-un www.manato.az ünvanındakı veb-saytı. |
| **Verilmiş kreditin Məbləğinin Ödəmə Tarixinin dəyişdirilməsi haqqında Saziş** | Borcalan verilmiş kreditin Məbləğinin Ödəniş Tarixini dəyişdirmək arzusunu bildirdikdə və BOKT bu dəyişiklikləri təsdiq etdikdə, BOKT ilə Borcalan arasında bağlana bilən müqavilə. Belə bir razılaşma bu Müqavilınənin ayrılmaz hissəsidir. |
| **Verilmiş kreditin məbləği** | Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olmayan şəxsi məqsədləri üçün müddətlik, ödəməlik və geri qaytarma şərtləri ilə Kredit müqaviləsinin şərtlərinə müvafiq olaraq Kreditorun Borcalana kredit limiti daxilində verilən kredit məbləği. |
| **Verilmiş kredit məbləği üzrə xidmət haqqının miqdarı:** | Borcalanın ödəmə qabiliyyətinə və maliyyə davranışına (vaxtında ödəmələr), keçmiş məlumatlara və digər məlumatlara əsaslanaraq və Borcalanın xidmət tələblərinə əsasən, verilmiş kredit məbləği üzrə xidmət aşağıdakı hərəkətləri əhatə edə bilər, lakin bunlarla məhdudlaşmır: Borcalanın və onun ödəmə qabiliyyətinin daxili və xarici qiymətləndirilməsi; Borcalanın ödənişlərinin, ödənilməmiş məbləğlərin və hər hansı ödəniş tarixlərinin uçotu, izlənməsi və üzləşdirilməsi; istənilən məsələ və ya rəylə bağlı dəstək üçün Borcalan ilə əlaqə; kredit limitinin artırılması və ya azaldılması üçün təklif və ya tələb; kreditin ödənilməməsi hallarında standart həllər; kreditin restrukturizasiyasına (ödəniş cədvəlləri və s.) dair təkliflər və yardım; Borcalanın ödənişlərini asanlaşdırmaq və sürətləndirmək üçün banklarla qarşılıqlı əlaqə və s. Verilmiş kredit məbləği üzrə xidmət haqqının miqdarı Müqavilənin Xüsusi şərtlərində əks olunmuşdur. |
| **BOKT hesabı** | BOKT-un Xüsusi şərtlərdə, saytda və ya hesab-fakturada qeyd olunan bank hesabı. |
| **Borcalanın hesabı** | Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş kredit təşkilatında Borcalanın adına açılmış cari hesab/poçt hesabı/ödəniş kartı və ya elektron pul kisəsi. |
| **kredit müqaviləsinin şərtləri və müddəaları** | kredit məbləğinin verilməsi qaydalarının müəyyənləşdirilməsi üzrə Müqaviləyə əlavə edilmiş şərtlər və müddəalar. Şərtlər və müddəalarla saytda tanış ola bilərsiniz. |

## 1. MÜQAVİLƏNİN ÜMUMİ ŞƏRTLƏRİ

1.1. Bu müqavilәni (bundan sonra "Müqavilә" adlandırılacaq) bir tәrәfdәn "SF Azerbaijan" Bank olmayan kredit tәşkilatı MMC (bundan sonra "Kreditor" vә/vә ya "BOKT" adlandırılacaq), digәr tәrәfdәn Müqavilәnin Xüsusi şәrtlәrindә mәlumatları qeyd olunan borcalan (bundan sonra "Borcalan vә/ vә ya Kredit alan" adlandırılacaq) (bundan sonra ayrılıqda "Tәrәf", birlikdә isә "Tәrәflәr" adlandırılacaqlar) bağlayaraq, verilmiş kredit mәblәğindәn istifadә qaydaları barәdә razılaşdılar.

1.2. Kreditin mәblәği Borcalanın әrizәsinә әsasәn, Borcalana hissә-hissә verilә bilәr.

1.3. Verilmiş kredit mәblәğindәn istifadә müddәti әn azı 7 (yeddi) gün müәyyәn edilir. Borcalan ilkin ödәniş müddәti 30 gün olan kredit mәblәği üçün müraciәt edә bilәr.

1.4. Müqavilәnin şәrtlәrinә әsasәn, verilmiş kredit mәblәğinin, habelә BOKT-a qaytarılmalı olan bütün digәr mәblәğlәrin ödәnilmәsi tarixi müqavilәnin Xüsusi şәrtlәrindә qeyd olunur.

1.5. Bu Müqavilә ilә bağlı vacib mәlumatlar (verilmiş kredit üzrә qaytarılmayan Mәblәğ, verilmiş kredit mәblәği üzrә xidmәt haqqı, verilmiş kredit mәblәğindәn istifadәyә görә haqq vә digәr mәlumatlar) hәr zaman Borcalanın Profilindә yerlәşdirilir.

1.6. Әgәr Borcalana әvvәlki kredit mәblәğindәn istifadә etdiyi müddәt әrzindә kredit limiti çәrçivәsindә әlavә kredit mәblәği verilәrsә, o zaman әlavә kredit mәblәğinә dair yeni müqavilә hazırlanır.

1.7. Borcalana әlavә kredit mәblәği verildiyi halda, artıq mövcud kreditin ödәmә tarixi saxlanılır, lakin hallardan asılı olaraq, verilmiş әlavә kredit mәblәği üzrә xidmәtә görә ümumi kredit borcunun ödәnilmәsi üçün qalan günlәrә uyğun olaraq hesablanan rüsum vә verilmiş kredit mәblәğindәn istifadәyә görә miqdarı әlavә kredit mәblәğindәn istifadә müddәtinә görә tәyin olunan vә BOKT tәrәfindәn tәqdim olunan preskuranta әsasәn gündәlik hesablanan rüsum tәtbiq edilә bilәr. Bütün ödәnişlәr verilmiş kredit mәblәğinin geri ödәnilmәsi ilә eyni vaxtda, borc ödәnilәn tarixdә hәyata keçirilir.

1.8. Borcalan verilmiş kredit mәblәğinin ödәnilmә tarixini  Azәrbaycan Respublikasının qanunvericiliyinә әsasәn dәyişmәk hüququna malikdir. Bu xidmәtdәn istifadә etmәk üçün Borcalan müvafiq xidmәti aktivlәşdirәrkәn, eyni zamanda kredit mәblәğinin ödәnilmә tarixinin dәyişdirilmәsinә görә BOKTtәrәfindәn tәqdim olunan preskuranta uyğun haqq ödәmәlidir.

1.9. Müqavilә әsasında müәyyәn edilmiş ödәnişlәr manat valyutası ilә hәyata keçirilir. Ödәniş başqa valyutada aparılarsa, müvafiq ödәnişin köçürüldüyü hesabın aid olduğu kredit tәşkilatının köçürmә anındakı mәzәnnәsinә uyğun olaraq valyutanın konvertasiyası hәyata keçirilir.

1.10. Verilmiş kredit mәblәğinin ödәnilmәsi Borcalan tәrәfindәn aşağıdakı qaydada hәyata keçirilir:
1) nağdsız qaydada – Borcalanın bank hesabından, poçt hesabından, ödәniş kartından vә ya elektron pul kisәsindәn BOKT-un bank hesabına köçürmә edәrәk, pul vәsaitinin köçürmә yolu ilә BOKT-un bank hesabına ödәnilmәsi (komissiyanın miqdarı Bankın tariflәrinә uyğun olaraq müәyyәn edilir vә Borcalan tәrәfindәn müstәqil surәtdә ödәnilir);
2) nağd qaydada - BOKT şöbәlәrindәki BOKT kassalarına ödәniş edәrәk (komissiya tutulmur).

1.11. Müqavilənin şərtlərinə əsasən, verilmiş kredit məbləğinin, habelə BOKT-a qaytarılmalı olan bütün digər məbləğlərin ödənilməsi üçün BOKT-a məxsus bank hesabının rekvizitləri: H.H.: AZ66AIIB400600E9444603070112 , Qeydiyyat nömrəsi: 1405686861.

1.12. Müqavilə üzrə müəyyən olunmuş ödənişlər qanuni yolla əldə edilmiş vəsait hesabına həyata keçirilir. BOKT-un Borcalandan vəsaitlərin qanuni mənşəyinə dair sübutlar tələb etmək hüququ var və Borcalan da həmin sübutları dərhal təqdim etməlidir.

1.13. Borcalan Müqavilə üzrə həyata keçirdiyi hər hansı ödənişlə bağlı hesab nömrəsini (hesab olmadıqda, Borcalanın adı, soyadı, şəxsi eyniləşdirmə nömrəsi və Müqavilənin Xüsusi şərtlərində əks olunan müştəri nömrəsi) qeyd etməlidir.

1.14. Öhdəliklərin vaxtında yerinə yetirilməməsinə görə BOKT Borcalandan geri ödənilməmiş ümumi məbləğ üzrə hər gecikdirilən gün üçün __% həcmində faiz tələb etmək hüququna malikdir.

1.15. Borcalan kredit üzrə qaytarmalı olduğu məbləği əməliyyat gününün sonunadək (Bakı vaxtı ilə 23:00) ödəməzsə, borc gecikdirilmiş hesab olunur.

1.16. Borcalan tərəfindən Müqavilə üzrə həyata keçirilən ödənişin məbləği Borcalanın Müqavilədən irəli gələn öhdəliklərini yerinə yetirmək üçün yetərli olmadıqda, Borcalanın borcu aşağıdakı ardıcıllıqla ödənilir: 1) gecikmə müddəti ərzində yığılmış borclar üzrə faizlər; 2) verilmiş kreditin Məbləğindən istifadə haqqı, komissiya; 3) şəraitdən asılı olaraq verilmiş kreditin məbləğinə xidmət göstərilməsi üçün məbləğ; 4) Əsas borcun məbləği.

1.17. Müqavilədən irəli gələn öhdəliklər Borcalan tərəfindən yerinə yetirilmədikdə və ya lazımı qaydada yerinə yetirilmədikdə, BOKT bu Müqaviləyə əsasən, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş bütün tədbirləri görmək hüququna malikdir, həmçinin BOKT-un aşağıdakı hüquqları var: 1) bu Müqavilə üzrə hüquqları (tələbləri) Borcalanın razılığı olmadan, öz mülahizəsinə əsasən hər hansı üçüncü şəxsə, kollektor agentliyinə yönləndirmək; 2) verilmiş kredit məbləğinin ödənilmə tarixi Borcalan tərəfindən 30 təqvim günündən artıq müddətə gecikdirilərsə, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq, Borcalandan borcun məhkəməyəqədərki tədbirlərlə alınması üçün müraciət etmək; 3) verilmiş kredit məbləğinin qaytarılmaması barədə məlumatları BOKT-un məlumatların verilməsi üçün müqavilə bağladığı kredit bürolarına (bürosuna) ötürmək; 4) pozulmuş hüquqlarının müdafiəsi və Müqavilə üzrə borc məbləğinin ödənilməsi üçün Azərbaycan Respublikasının məhkəmə orqanlarına müraciət etmək.

1.18. Bu Müqavilə Tərəflər onu imzaladığı andan qüvvəyə minir və Müqavilənin şərtlərinə əsasən, verilmiş kredit məbləği, habelə BOKT-a qaytarılmalı olan bütün digər məbləğlər Borcalan tərəfindən tam ödənilənədək qüvvədə qalacaqdır.

1.19. Bu Müqavilədən irəli gələn öhdəliklərin pozulmasına görə Tərəflər hazırkı Müqavilə və/və ya Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar.

1.20. Borcalan kredit üzrə ödənişlərin gecikdirilməsinə, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməməsi nəticəsində dəymiş zərərlərə, Müqavilə bağlamaq və kredit üzrə sənədləşmənin düzgün aparılması üçün zəruri olan məlumatların və sənədlərin etibarlılığı və həqiqiliyinə görə tam məsuliyyət daşıyır.

1.21. Müqavilə bağlamaq, habelə ona kredit məbləğinin verilməsi üçün Borcalan aşağıdakı meyarlara uyğun olmalıdır və Müqavilənin qüvvədə olacağı bütün dövr ərzində uyğun olacağını təsdiq edir:
1.21.1. Borcalan – fiziki şəxsdir;
1.21.2. Borcalanın yaşı 18-dan 65-ə qədərdir;
1.21.3. Borcalananın bəyan edilmiş daimi yaşayış yeri Azərbaycan Respublikasındadır və Borcalan vergitutma məqsədləri üçün rezident hesab olunur;
1.21.4. Borcalanın adına kredit təşkilatında hesab/poçt hesabı açılıb/Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş ödəniş kartı və ya elektron pul kisəsi almışdır ki, onun köməyi ilə Borcalanın mövcud pul vəsaiti üzərində sərbəst sərəncam vermək hüququ vardır;
1.21.5. Borcalan həqiqi benefisiardır (yəni Borcalan yalnız öz adından, öz mənfəəti və maraqları üçün çıxış edir);
1.21.6. Müqavilə bağlanan anda Borcalan spirtli içkilər, narkotik, psixotrop və ya zəhərli maddələrin təsiri altında deyildir;
1.21.7. Borcalan sabit gəlirə malikdir;
1.21.8. Borcalan siyasi əhəmiyyətli şəxs, siyasi əhəmiyyətli şəxsin ailə üzvü və ya yaxın adamı deyil, beynəlxalq və daxili sanksiyalara məruz qalmır və terrorçuların siyahısına daxil edilməmişdir.

1.22. Müqavilə bağlanan anda və kredit məbləğinin verilməsi üçün müraciət edərkən Borcalan fəaliyyət qabiliyyətlidir və spirtli içkilər, narkotik, psixotrop və ya zəhərli maddələrin təsiri altında deyildir.

## 2. TƏRƏFLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

**2.1. Borcalanın hüquqları:**
1) Verilmiş kredit məbləği üzərində hazırkı Müqavilə ilə müəyyən olunmuş qaydada və şərtlərlə sərəncam vermək;
2) Müqavilənin şərtlərinə əsasən, verilmiş kredit məbləğini, habelə bütün digər məbləğləri bu müqavilə bağlandıqdan sonrakı ilk iş günü ərzində, verilmiş kredit məbləği üzrə borcun ödənildiyi tarix bazar və ya bayram gününə düşərsə, gecikmə faizi tətbiq edilmədən ödəmək;
3) bu Müqavilə əsasında verilmiş kredit məbləğini və bütün digər məbləğləri Müqavilənin şərtlərinə uyğun olaraq, vaxtından əvvəl, tam və ya hissə-hissə, gecikmə faizi vermədən BOKT-a geri ödəmək;
4) BOKT-a yazılı şəkildə aşağıdakı elektron poçt ünvanı: **info@manato.az** və ya BOKT-un şöbələri vasitəsilə müraciət etmək.
5) öz hüquqlarını Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada müdafiə etmək;
6) Azərbaycan Respublikasının qanunvericiliyi və hazırkı Müqavilə ilə nəzərdə tutulmuş digər hüquqları icra etmək.

**2.2. Borcalanın öhdəlikləri:**
1) Müqavilənin şərtləri, kredit müqaviləsinə əlavə edilmiş şərtlər və müddəalar, kredit məbləğinin verilməsi üzrə BOKT-un preskurantları, BOKT-un şəxsi məlumatların emal edilməsi ilə bağlı siyasəti ilə tanış olmaq;
2) Müqavilənin şərtlərinə uyğun olaraq verilmiş kredit məbləği və bütün digər məbləğləri bu Müqavilə ilə müəyyən edilmiş müddətlərdə və qaydada qaytarmaq;
3) Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Müqavilənin tələblərinə uyğun olaraq, BOKT tərəfindən sorğulanan sənədləri və məlumatları təqdim etmək;
4) Azərbaycan Respublikasının qanunvericiliyi və hazırkı Müqavilə ilə nəzərdə tutulmuş digər tələbləri icra etmək.

**2.3. BOKT-un hüquqları:**
1) Müqavilə bağlamaq və müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan sənədləri və məlumatları Borcalandan tələb etmək;
2) Borcalan Müqavilə üzrə öz öhdəlikləri yerinə yetirmədikdə və/və ya lazımı qaydada yerinə yetirmədikdə, Müqavilə üzrə borcların Borcalandan məcburi qaydada alınması barədə ərizə ilə məhkəmə orqanlarına müraciət etmək, həmçinin BOKT-un həmin borc məbləğinin alınması məqsədilə çəkdiyi xərclərin ödənilməsini tələb etmək; 3) Borcalan verilmiş kreditin ödəniş tarixini 30 təqvim günündən artıq gecikdirərsə, BOKT borcun alınması məqsədilə kollektor agentliklərini cəlb etmək, onlara Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun qaydada bütün zəruri məlumat və sənədləri təqdim etmək hüququna malikdir;
4) Borcalana SMS bildirişlər, elektron ünvanına məktublar, telefon zəngləri vasitəsilə borcun ödənilməsi üzrə növbəti tarix, habelə kreditlə bağlı həyata keçirilməsi zəruri olan digər tədbirləri xatırlatmaq;
5) bu Müqavilə üzrə hüquqları (tələbləri) Borcalanın razılığı olmadan, öz mülahizəsinə əsasən hər hansı üçüncü şəxsə yönəltmək;
6) Borcalan tərəfindən verilmiş kredit məbləğinin ödənilmə tarixi 10 təqvim günündən artıq müddətə gecikdirilərsə, bu Müqaviləyə uyğun olaraq verilmiş kredit məbləği və bütün əlavə ödənişlərin vaxtından əvvəl qaytarılmasını tələb etmək;
7) Azərbaycan Respublikasının qanunvericiliyi və hazırkı Müqavilə ilə nəzərdə tutulmuş digər hüquqları icra etmək;
8) Aşağıdakı hallardan hər hansı biri baş verərsə, Müqavilədən birtərəfli qaydada imtina etmək və 7 (yeddi) gündən gec olmayaraq, Borcalana bu barədə yazılı bildiriş göndərməklə Müqaviləyə xitam vermək:

- Borcalan bu Müqaviləyə uyğun olaraq verilmiş kredit məbləğinin ödənilməsini və bütün əlavə ödənişləri 30 təqvim günündən artıq müddətə gecikdirdikdə;
- Borcalanın borcunu ödəyə bilməməsi üzrə iş ilə bağlı məhkəmə qərarı qanuni qüvvəyə mindikdə;

9) aşağıdakı hallardan hər hansı biri baş verərsə, birtərəfli qaydada Müqavilədən çıxmaq və Müqaviləni dərhal ləğv etmək:

- Borcalan Azərbaycan Respublikasındakı milli və ya beynəlxalq sanksiyaların obyektinə çevrildikdə və ya sanksiyalar və digər normativ aktlara əməletməni və onların icrasını tənzimləyən qaydaların tələblərini pozduqda;
- Borcalan fəaliyyət göstərmədikdə və/və ya həqiqi, tam və kifayət qədər məlumat/sənəd təqdim etmədikdə və ya BOKT-un sorğusu əsasında Borcalanı araşdırmaq və onun şəxsiyyətini müəyyən etmək üçün zəruri olan sənədləri/məlumatları təqdim etməkdən imtina etdikdə;

- Borcalanın dələduzluq, çirkli pulların yuyulması, terrorizm və onun yayılmasının maliyyələşdirilməsi ilə hər hansı əlaqəsi olması və ya digər cinayətlərdə iştirakına dair şübhə olduqda.

BOKT bu Müqavilənin 8) və 9) bəndində nəzərdə tutulmuş hüquqlarını həyata keçirərsə, Borcalan Müqavilə üzrə BOKT-a ödəməli olduğu bütün borc məbləğini tam həcmdə geri ödəməlidir.

**2.4. BOKT-un öhdəlikləri:**
1) Ünvanı və ya adı dəyişərsə, BOKT-un yerləşdiyi yer və ya hüquqi ünvanı barədə Azərbaycan dilində müvafiq məlumat dərc etmək və ya dəyişikliklərin baş verdiyi tarixdən sonrakı 10 (on) iş günündən gec olmayaraq bu barədə Borcalanı yazılı şəkildə məlumatlandırmaq;
2) kredit Müqaviləsinin surətini Borcalanın gözdən keçirməsi və tanış olması üçün ona əlçatan yerdə, o cümlədən saytda yerləşdirmək;

3) Borcalana verilmiş kredit məbləğinin alınması, istifadəsi, xidmət haqqı və geri ödənilməsi (qaytarılması) ilə bağlı ödənişlər barədə tam və düzgün məlumat vermək;
4) Verilmiş kredit məbləğinin alınması ilə bağlı Borcalanı öz hüquq və öhdəlikləri barədə məlumatlandırmaq;
5) Verilmiş kredit məbləğinin təqdim edilməsi ilə bağlı məxfiliyə riayət etmək;
6) Borc məbləğini tələb etmək hüququnun başqasına verilməsi haqqında müqavilə bağlamazdan əvvəl hüquqların (tələblərin) üçüncü şəxsə ötürülməsi, habelə bu halla əlaqədar Borcalanın şəxsi məlumatlarının emal olunması ehtimalı barədə onu SMS bildirişləri və/və ya elektron poçt ünvanına məktub vasitəsilə məlumatlandırmaq;
7) Borc məbləğini tələb etmək hüququnun başqasına verilməsi ilə əlaqədar müqavilənin bağlandığı tarixdən 15 (on beş) iş günü müddətində Borcalanı SMS bildirişləri və/və ya elektron poçt vasitəsilə hüququn (tələbin) üçüncü şəxsə keçməsi barədə məlumatlandırmaq, bu zaman verilmiş kredit məbləği üzrə sonrakı ödənişlərin üçüncü şəxsə yönləndirilməsi (kredit Müqaviləsi üzrə hüquqların (tələb) ötürüldüyü şəxsin adı və ünvanı), verilmiş hüquqların (tələblərin) tam həcmi, habelə əsas borcdan gecikdirilmiş və cari ödənişlər üzrə qalıqlar və ödənilməli olan digər məbləğlər qeyd olunmalıdır;
8) Borcalanın dələduzluq, çirkli pulların yuyulması və ya terrorizmin maliyyələşdirilməsi, həmçinin kütləvi qırğın silahlarının yayılması və ya digər cinayət əməlləri ilə əlaqəsi olduğuna şübhə yaranarsa, kredit məbləğini verməkdən imtina etmək;
9) Borcalana Müqavilənin 2.6.1-ci bəndində nəzərdə tutulmuş qaydada və şərtlərlə gecikmə barədə məlumat vermək;
10) Azərbaycan Respublikasının qanunvericiliyi və hazırkı Müqavilə ilə nəzərdə tutulmuş digər tələbləri icra etmək.

**2.5. BOKT aşağıdakıları edə bilməz:**
1) Hazırkı Müqavilə üzrə verilmiş kredit məbləğini birtərəfli qaydada dəyişdirmək;
2) Verilmiş kredit məbləği üzrə borcun ödənildiyi tarixin bazar və ya bayram gününə düşməsi səbəbindən ödəniş növbəti iş günündə həyata keçirildikdə, gecikmə faizi tələb etmək.

**2.6. Borcun məhkəməyəqədərki həlli qaydası.**

2.6.1. Bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi ilə bağlı gecikmə olduqda, onun baş verdiyi tarixdən sonrakı 5 iş günündən gec olmayaraq, BOKT aşağıdakılar barədə məlumatların çatdırılmasını təmin edən rabitə vasitələrindən istifadə edərək Borcalana aşağıdakılar barədə məlumat verir:

1) Müqavilə üzrə öhdəliyin yerinə yetirilməsi ilə bağlı gecikmənin baş verməsi və ödənişlərin edilməsinin vacibliyi (bildirişdə göstərilən tarixə olan vaxtı keçmiş borcun məbləğini göstərməklə);
2) Borcalanın BOKT-a müraciət etmək hüququ;
3) Borcalanın Müqavilə üzrə öhdəliklərinin yerinə yetirməməsinin nəticələri.

Verilmiş kredit məbləğinin ödənilmə tarixi Borcalan tərəfindən 30 təqvim günündən artıq müddətə gecikdirildikdə, BOKT-un Borcalanı məlumatlandırmaq üçün kollektor agentliyi cəlb etmək hüququ vardır.

## 3. KREDİTİN VERİLMƏSİ QAYDASI

3.1. Verilmiş kredit məbləği həmin məbləğin Borcalanın olan "AZ60IBAZ33881019447570197256" SC-də "IBAZAZ2X" saylı bank hesabı/poçt hesabı/ödəniş kartı və ya elektron pul kisəsinə köçürülməsi yolu ilə təqdim olunur.

3.2. Pul vəsaitinin köçürülməsi BOKT tərəfindən hazırkı Müqavilə bağlandıqdan sonrakı 3 (üç) iş günündən gec olmayaraq həyata keçirilir. Verilmiş kredit məbləği Borcalanın bank hesabı/poçt hesabı/ödəniş kartı və ya elektron pul kisəsinə köçürüldüyü andan etibarən Borcalan verilmiş kredit məbləğini almaqdan tamamilə və ya qismən imtina edə bilməz.

3.3. Kredit məbləği BOKT hesabından Borcalanın hazırkı Müqavilənin 3.1-ci maddəsində qeyd olunmuş bank hesabı/poçt hesabı/ödəniş kartı və ya elektron pul kisəsinə köçürüldükdən sonra kredit məbləği Borcalana təqdim olunmuş, BOKT isə öz öhdəliklərini icra etmiş hesab olunacaqdır.

## 4. KREDİTİN QAYTARILMASI QAYDASI

4.1. Borcalan verilmiş kredit məbləği üzrə Müqavilədə nəzərdə tutulmuş tarixlərdə ödəniş edərək, Müqavilənin şərtlərinə uyğun olaraq verilmiş kredit məbləğini və bütün məbləğləri qaytarmağa borcludur.

4.2. Verilmiş kredit məbləği üzrə borcun ödənildiyi tarix bazar gününə düşərsə, ödəniş günü növbəti iş günü hesab edilsin (həmin günə keçirilsin).

4.3. Verilmiş kredit məbləğinin ödənildiyi tarix vəsaitin BOKT-un bank hesabına daxil olduğu tarix hesab olunur.

4.4. Verilmiş kredit məbləğinin ödənilmə müddətinin hesablanması verilmiş kredit məbləğinin təqdim olunduğu gündən başlayır və tam olaraq ödənildiyi anda başa çatır. Borcalan hazırkı Müqaviləyə uyğun olaraq verilmiş kredit məbləğini və bütün əlavə ödənişləri cərimə sanksiyaları olmadan vaxtından əvvəl qismən və ya tam ödəmək hüququna malikdir. Bu Müqaviləyə uyğun olaraq verilmiş kreditin məbləği və bütün əlavə ödənişlər verilmiş kredit məbləğinin təqdim olunduğu tarixdən sonrakı 5 (beş) təqvim günündən tez olmayaraq Borcalan tərəfindən yazılı ərizə əsasında vaxtından əvvəl tam və ya qismən qaytarıla bilər.

4.5. Bu Müqaviləyə uyğun olaraq verilmiş kredit məbləğinin və bütün əlavə ödənişlərin vaxtından əvvəl geri ödənilməsi birdəfəlik ödəmə qaydasında həyata keçirilir.

4.6. Borcalan pul vəsaitlərinin BOKT-a köçürülməsi üçün üçüncü şəxslərin xidmətlərindən istifadə edərsə, ödənişlərin gecikdirilməsi riskini üzərinə götürür.

## 5. ŞƏXSİ MƏLUMATLARIN TƏQDİM EDİLMƏSİ VƏ EMALI

5.1. BOKT Borcalanın şəxsi məlumatlarını Azərbaycan Respublikasının qanunvericiliyi, Borcalanın razılığı və BOKT-un şəxsi məlumatların emalı ilə bağlı siyasətinə uyğun olaraq emal etmək hüququna malikdir.

## 6. YEKUN MÜDDƏALAR

6.1. Müqavilə qeyri-müəyyən müddətə bağlanır və hər iki Tərəfin öhdəlikləri tam yerinə yetirilənə qədər qüvvədə qalır.

6.2. Tərəflər bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi zamanı ortaya çıxan hər hansı mübahisələr, fikir ayrılıqları və ya narazılıqların Tərəflər arasında danışıqlar yolu ilə həllini təmin etmək üçün müvafiq tədbirlər görməyi öhdələrinə götürürlər.

6.3. Əgər Tərəflər arasında razılıq əldə olunmazsa, bu Müqavilə üzrə bütün həll edilməmiş mübahisələrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının məhkəməsində baxılacaqdır.

6.4. Bu Müqaviləni imzalamaqla Borcalan təsdiq edir ki, BOKT-dan kredit məbləğinin alınması ilə bağlı öz hüquq və öhdəlikləri barədə məlumatlandırılmış və onlarla tanış olmuşdur.

6.5. Tərəflərin bu Müqavilədə göstərilən ünvanlarına göndərilən bütün bildirişlər lazımi qaydada göndərilmiş hesab olunur.

6.6. Bu müqavilə hər bir Tərəf üçün bir nüsxə olmaqla, eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə Azərbaycan dilində tərtib olunmuşdur. Müqavilənin əsli Borcalana elektron formada göndəriləcəkdir, həmçinin Borcalan tələb etdiyi təqdirdə, Müqavilənin əsli onun yaşayış ünvanına da göndəriləcəkdir.

6.7. Bu Müqavilənin bir hissəsinin etibarsız hesab olunması onun digər hissələrinin və ya bütövlükdə Müqavilənin etibarsızlığına səbəb olmur. Bu Müqavilə ilə nəzərdə tutulmayan bütün digər hallarda Tərəflər BOKT-un www.manato.az saytında və BOKT-un şöbələrində yerləşdirilmiş kreditlərin verilməsi qaydalarını rəhbər tuturlar.

6.8. Müştəri tərəfindən müraciət, təklif və şikayətlərin "SF Azerbaijan" BOKT MMC-nin, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankının müvafiq struktur bölməsinə təqdim edilməsi aşağıdakı əlaqə vasitələri ilə həyata keçirilə bilər:
"SF Azerbaijan" BOKT MMC:
Qaynar xətt: 994123110255;
Elektron poçt: info@manato.az
Azərbaycan Respublikasının Mərkəzi Bankı üzrə:
Qaynar xətt: +99412 966;
Telefon nömrəsi: +99412 4935058.

## 7. TƏRƏFLƏRİN REKVİZİTLƏRİ VƏ İMZALARI

**Borcalan:**

Soyadı, adı, ata adı:
____________________
ŞV № AA_______
FIN ________
Ünvanı: ______________________
Mobil telefon nömrəsi:__________
ASA: ______________________
Imza: ____

**BOKT:**

**“SF Azerbaijan” Bank olmayan kredit təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti**
Ünvan: AZ1025, Azərbaycan Respublikası, Bakı, Xətai rayonu, Xocalı pr., ev 37,
H.H.: AZ66AIIB400600E9444603070112
Bank: Kapital Bank ASC
Bankın VÖEN-i: 9900003611
SWIFT: AIIBAZ2X